UOT 372.894(47)Az

***Damla Sevindik qızı Həsənzadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİXİN TƏDRİSİNDƏ DEMOKRATİYA VƏ HUMANİZM PRİNSİPLƏRİNDƏN İSTİFADƏNİN MAHİYYƏTİ

***Дамла Севиндик гызы Гасанзаде***
*Азербайджанский Государственный Педагогический Университет*

# СУЩНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ПРИНЦИПОВ ДЕМОКРАТИИ И ГУМАНИЗМА В ПРЕПОДАВАНИИ ИСТОРИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Damla Sevindik Hasanzada***
*Azerbaijan State Pedagogical University*

# THE ESSENCE OF USING PRINCIPLES OF DEMOCRACY AND HUMANISM IN TEACHING HISTORY IN GENERAL EDUCATION SCHOOLS

**Xülasə.** Məqalədə şəxsiyyətin tərbiyə olunmasında demokratiya və humanizm prinsiplərinin aktuallığı və problemlə bağlı müxtəlif fikirlər təhlil edilir, ümumiləşdirilir. Ümumtəhsil məktəblərində tarix təlimi prosesində humanizm və demokratiyadan istifadənin mahiyyətinə aydınlıq gətirilir, nəzəri və praktik məsələləri nəzərdən keçirilir, təhlil və tədqiq edilir.
***Açar sözlər:*** *təhsil, təlim, humanistləşdirmə, demokratiya, prinsip*

**Резюме.** В статье анализируются и обобщаются различные взгляды на проблемы и актуальность принципов демократии и гуманизма в воспитании личности. Уточняется сущность применения гуманизма и демократии в процессе преподавания истории в общеобразовательной школе, рассматриваются, анализируются и исследуются теоретические и практические вопросы.
***Ключевые слова:*** *образование, обучение, гуманизация, демократия, принцип*

**Summary.** The article analyses and summarizes various opinions concerning actuality and problems of the principles of democracy and humanism in educating an individual. The essence of using humanism and democracy in teaching history in general education schools is clarified, its theoretical and practical issues are reviewed, analyzed and researched.
***Keywords:*** *education, teaching, humanization, democracy, principle*

Təhsil dövlətin və cəmiyyətin mənəvi, mədəni, sosial-iqtisadi inkişafının əsasıdır. Müasir dövrdə ümumtəhsil məktəblərində təhsil-tərbiyə prosesinin, xüsusilə də tarixin tədrisinin humanistləşdirilməsi və demokratikləşdirilməsi mühüm pedaqoji problemlərdən hesab olunur.

Tarix təlimi prosesində humanist və demokratik yanaşma bir-biri ilə sıx bağlıdır. Humanizm insana milli və ümumbəşəri, əxlaqi-mənəvi dəyərlər baxımından yanaşılmasında meydana çıxır. Bu prinsipə görə təhsilalanların mənəvi və mədəni inkişafı üçün ayrı-seçkilik edilmədən şərait yaradılır, onların fiziki və psixoloji sağlamlığı, ləyaqəti qorunur. Təlimdə demokratiya isə bərabərhüquqlu tərəfdaşlıq, anlaşıqlı əməkdaşlıq tələb edir. Təhsilalanların nümunəvi vətəndaş kimi tərbiyə olunmasında təhsil-təlim prosesinin misilsiz rolu vardır.

Tərbiyə prosesi ilk öncə ailədə, sonrakı mərhələdə isə məktəbdə formalaşır. Bunun üçün də təlim prosesi zamanı istifadə olunan üsullar , metodlar, prinsiplər çox dəqiqliklə seçilməlidir. Çünki tarix dərsi nisbətən mürəkkəb , şagird üçün çətinlik dərəcəsinə görə fərqlənən bir fəndir. Bunun səbəbi isə təbii ki, xronologiyalar və tarixi hadisələrdir. Bu zaman əsas məsuliyyət müəllim üzərinə düşür və müəllim hər mövzuya uyğun olaraq müəyyən üsullar, metodlar tətbiq

edir. Bu üsullar düzgün seçilmədiyi şəraitində mövzu tam mənimsənilməyə bilər. Müasir dövrdə təlim prosesində bütün bunları nəzərə alaraq, xüsusilə də tarix təlimi prosesində digər prinsiplərlə yanaşı humanizm və demokratiya prinsiplərindən istifadə ön planda saxlanılmalıdır.

Demokratiya və humanizm prinsiplərindən təlim prosesində istifadə olunmasının əsas məqsədi hər şeyi bilmək istəyən müstəqil vətəndaşların formalaşması üçün şərait yaratmaqdır. Təhsildə azad axtarış ruhu demokratik prinsiplərin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Azad axtarışın özü demokratik dəyər hesab olunur. Tarix təlimi prosesində təhsilalanlara humanizm və demokratiya prinsiplərini aşılamaqla indiyə qədər toplanmış dünya təcrübəsini, eləcə də iqtisadi, siyasi, sosial və mədəni inkişafın ölkəmizə və xalqımıza xas olan xüsusiyyətlərini daha dərindən öyrənməyə imkan yaradılır.

Təhsilalanların tərbiyə edilməsi dərs prosesində baş verir, müəllimin vəzifəsi sadəcə şagirdlərə elmi biliklər verməkdən ibarət deyil, bu vəzifələrdən biri də şagirdlərin tərbiyə prosesinin təşkil edilməsidir. Tarix dərsində yerinə yetirilən tərbiyə işinin əsasını biliklərin verilməsi həmçinin şagirdlərin tərbiyələndirilməsi təşkil edir [1, s. 25]. Bəzən eyni tarixi hadisəyə iki şagirdin münasibəti eyni olmur, tarixi hadisələri düzgün təhlil etməyi və şagirdlərin tarixi hadisəyə münasibətlərinin formalaşdırılmasında müəllim şagirdlərə kömək etməlidir. Müasir dövrdə nəinki sadəcə tarix təlimi prosesində, həmçinin məktəbin interyerindən pedaqoji prosesin məzmununa qədər hər şey humanist və demokratik mahiyyət kəsb etməlidir. Təhsilverənlərlə təhsilalanlar arasındakı münasibətlə yanaşı həm də təhsilin məzmunu, mahiyyəti, prinsipləri, metodları, təşkili formaları humanistləşdirilməlidir. Bu prinsiplərin tarix təlimi prosesində aşılanması demokratik fikirli vətəndaş yetişdirmək, onlarda sərbəst düşünmə tərzi formalaşdırmaq, dünyagörüş aspektini genişləndirmək baxımından təhsilalanlarda tərbiyə prosesinə səmərəli təsir göstərir. Bununla yanaşı, ölkəmizdəki problemləri həll etməyi bacaran humanist fikirli, Azərbaycanın iqtisadi, mədəni, elmi cəhətdən yüksək inkişafını təmin edə biləcək vətəndaş hazırlanır. Bu xüsusiyyətlərə malik olan gənclərin yetişdirilməsi ilk növbədə tərbiyə prosesindən asılıdır. Dərs prosesində demokratiya və humanizm prinsiplərindən istifadə məhz bu ruhda, bu tərbiyədə gənclərimizin formalaşmasını təmin edir. Tədris materialının seçilməsi və sistemləşdirilməsi, istifadə edilən bütün üsul və vasitələr dərsin əsas ideyasına, onun konkret təlim-tərbiyə və inkişafetdirici məqsədlərin həllinə yönəldilməlidir. Təhsilin humanistləşdirilməsi, ilk növbədə şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsini, özünüreallaşdırması üçün əlverişli şəraitin, mühitin yaradılmasını nəzərdə tutur [2, s. 77].

Humanistlik Təhsil Qanununda “Milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf-mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması" kimi şərh edilir. Çox təəssüf ki, hələ də demokratik və humanist yanaşmanı özbaşınalıq, xaos, şəxsi subyektiv maraqların qabarıq olması kimi yanlış istiqamətləndirənlər olur. Bu yanaşma olduqca qeyri dəqiq və əsilsiz iddialardır. Çünki azadfikirli, tolerant bir yanaşmanı, özbaşınalıq və xaos kimi qiymətləndirmək düzgün deyil. Bu Təhsil sistemində də öz əksini tapmışdır. Şagirdlərin təlim-tərbiyəsi milli zəminə, ümumbəşəri dəyərlərinə əsaslanmaqla, demokratik xarakterdə aparılmalı, onlara milli mənlik, vətəni sevmək, xalqının layiqli övladı olmaq hissi aşılanmalıdır [3, s .50]. Təhsil sistemin qarşısında duran əsas vəzifələrdən biri də elə məhz yüksək biliyə malik olan gənclər yetişdirməklə yanaşı, hərtərəfli inkişaf etmiş, yüksək hazırlığa malik olan, öz fikrini azad ifadə edən, fakt və hadisələrə müstəqil yanaşmağı bacaran, təhlil və tədqiq edən gənclər yetişdirməkdir. Bu onu tələb edir ki, lap aşağı siniflərdən başlayaraq, eləcə də tarix fənninin tədrisində istifadə olunan metodlar, üsullar, prinsiplər məqsədə uyğun seçilsin. Ona görə də demokratiya və humanist prinsiplərinin tətbiqinə xüsusi önəm verilməli və bu məsələ xüsusilə diqqətdə saxlanılmalıdır. Tarixin tədrisində uzun müddət inzibati amirlik metoduna üstünlük verilməsi, demokratik istiqamətdə həyata keçirilən tədbirlər bir müddət kosmetik təmir xarakteri daşımışdır. Ancaq müasir dövrdə bu prinsiplərdən istifadə yüksək və keyfiyyətli səviyyəyə çatdırılmış, təhsilalanların tərbiyə olunmasının mühüm istiqamətinə çevrilmişdir. Bu prinsiplər-

dən istifadəni daim ön planda saxlamaq və digər prinsiplərlə də vəhdətli şəkildə istifadə etmək lazımdır. Təhsil prosesi kəsilməz və dinamik bir proses olduğundan zaman-zaman onun qarşısında duran məqsəd və vəzifələr dəyişir. Hər dövrün tələblərinə uyğun olaraq bu məqsəd və vəzifələri yerinə yetirmək lazımdır [4. s. 15]. Humanizm və demokratiya prinsiplərinin tarix dərslərində tətbiqi məsələsi təhsilin müasirləşdirilməsinə təsiri olduqca böyükdür. Digər təlim prinsipləri ilə yanaşı bu prinsiplərin tətbiqi müasir təhsil sistemini dünya təhsil standartlarına uyğunlaşdırır. Çünki uğurlu bir gələcək ilk öncə düzgün qurulmuş təlim və tərbiyə prosesindən asılıdır. Buda özlüyündə təhsil sistemində öz əksini tapır.

Belə bir ümumi nəticəyə gələ bilərik ki, Tarix dərsində təlim və tərbiyə prosesinin keyfiyyətli təşkil edilməsində təlim prinsiplərinin əhəmiyyətini nəzərə alaraq bu prinsiplərin tətbiqi müəllimin əsas vəzifəsinə çevrilməlidir. Tarix təlimində digər prinsiplərlə yanaşı demokratiya və humanizm prinsiplərinin tətbiq edilməsi şagirdlərin demokratik ruhda böyüməsi, öz vəzifələrini, hüquqlarını bilən, hadisələrə qarşı təmkinli və analitik yanaşan gənclərin yetişdirilməsi deməkdir. Bunun üçün bu prinsiplər daha dərindən araşdırılmalı, təhlil edilməli və tətbiq edilməlidir.

**Problemin elmi yeniliyi.** Müasir təlim prosesinin tələblərindən irəli gələrək tarix dərslərində humanizm və demokratiya prinsiplərinin tətbiqi üçün bu prinsiplərin daha dərindən araşdırılmasına və daha da təkmilləşdirilməsinə ehtiyac var.

**Problemin praktik əhəmiyyəti.** Tarix dərsinin keyfiyyətli təşkilində humanizm və demokratiya prinsiplərinin istifadəsi böyük rol oynayır.

**Problemin aktuallığı.** Demokratiya və humanizm prinsiplərinin tətbiqi zamanı qrup və cütlərlə iş formalarından istifadə xüsusi aktuallıq kəsb edir.

**Ədəbiyyat:**

1. Məmmədov M.S. Tarixin tədrisinin aktual problemləri. Bakı, 2015.
2. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikasi: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011.
3. Rzayev O.H, Məmmədov S.M, İsmayılov Ş.N Təhsilin idarə olunmasının əsasları. Bakı, 2010.
4. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı, 2000.

**E-mail:** damlahesenzadeh97@gmail.com

**Rəyçilər**: *tarix ü.fəls.dok., dos.* **S.X. Məmmədova**
*ped.ü.fəls.dok.* **D.M. Musayev**

**Redaksiyaya daxil olub:** 11.03.2021